Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması

# Qərb təşkilatları Azərbaycanda ailə məsələlərinə 11 milyon dolları niyə xərcləyiblər...

**Azərbaycan ailə modeli tamamilə fərqli, bənzərsiz təməllər üzərində formalaşıb. Milli ailə mədəniyyətimizin institutlaşması prosesi nəticəsində nümunəvi ailə modeli yaradılıb. Azərbaycan ailə institutu hər zaman özünəxas keyfiyyətləri, göstəriciləri, adət və ənənələri ilə seçilib. Ailə daxilində qadına, anaya xüsusi hörmət göstərilib. Cəmiyyətdə qadın və kişinin bərabərliyi hər zaman olub və bu bərabərlik unikal harmoniya yaradıb. Əlbəttə, Azərbaycanda mövcud olan klassik ailə modelinin varlığı Qərb ölkələrini, antiazərbaycan dairələrini ciddi narahat etməyə başlayıb.**



Təbii ki, Azərbaycan dövlət müstəqilliyini elan edəndən sonra xarici beynəlxalq təşkilatlarla geniş əməkdaşlığa başlayıb. Nəticədə də bir sıra beynəlxalq qurumların ölkəmizdə ofisləri açılıb, nümayəndəlikləri yaradılıb. Heç şübhəsiz ki, bəzi xarici təşkilatların Azərbaycana maraq göstərməsi təsadüfi olmayıb və onlar bura xüsusi missiya üçün gəliblər. Onların əsas missiyası Azərbaycanın daxili işlərinə qarışmaq, düzənini pozmaq olub. Əlbəttə, Azərbaycanın ənənəvi ailə modelini zədələmək istəyi də əcnəbi təşkilatların əsas məqsədlərindən biri olub. Odur ki, bu məsələni heç diqqətindən yayındırmayıblar. Sözsüz ki, harada aş, orada baş olan ABŞ təşkilatları burada xüsusi "fəal" olub. ABŞ Beynəlxalq İnkişaf Agentliyi (USAİD) bu tip təşkilatlardan biri olub ki, onun da əsas işi dövlətimizin işinə qarışmaq, müdaxilə etmək, pozuculuqla məşğul olmaq olub.

Məlum olduğu kimi, bu təşkilat ölkəmizdə fəaliyyətə başlayan kimi, daxildən özünə emissarlar toplayıb. Onların əli ilə öz maraqlarını təmin etməyə çalışıb.

### Ailə dəyərlərimiz USAİD-in hədəfində...

İllər əvvəl heç ağlımıza gəlməzdi, düşünməzdik ki, ABŞ-ın, yaxud Qərbin, Avropanın hansısa bir "xeyirsevər" təşkilatı ölkəmizdə qarışdırıcılıq etmək istəyə və konkret olaraq ailə dəyərlərimizi hədəfə ala, milli ailə modelimizi gender bərabərliyi, qadın azadlığı, qadın-kişi bərabərliyi adı altında barbarcasına dağıtmağı qarşısına məqsəd qoya bilər. Çox təəssüflər olsun ki, USAİD başda olmaqla bir sıra beynəlxalq təşkilatların məqsədlərindən biri məhz bu olub. Onlar elə kampaniyalar, elə təbliğatlar aparıblar ki, kənardan baxanlar da Azərbaycanda gender bərabərliyi olmadığını düşünüb. Ekspertlər qeyd edirlər ki, ermənipərəst USAİD ölkəmizdə tamamilə yeni bir ailə modelinin formalaşmasına çalışıb və bunun üçün daha çox gənclərə, gənc qadınlara jestlər edib. Təbii ki, söhbət çirkin jestlərdən gedir.

Ekspertlərin sözlərinə görə, USAİD-in həyata keçirdiyi məkrli siyasət özünü bir sıra istiqamətlərdə göstərib. Ekspertlərə görə, son illər bu siyasət özünü Azərbaycanda ailə dəyərləri, gender bərabərliyi, cinsi azlıqlarla bağlı vəziyyət və s. sahələrdə büruzə verir. "Yəni, belə bir "dəstxətt" ermənipərəstliklə çulğalaşmış durumdadır. Bir halda ki, güclü Azərbaycan özünün ərazi bütövlüyünü və suverenliyini bərpa etdi, deməli, ona qarşı çıxmaq üçün "yumşaq güc"ə üstünlük verilməlidir"-deyə yazılardan birində qeyd edilir. Bu təşkilat ailə dəyərlərimizi məhv etməklə bizi torpaqlarımızın azadlığından, ərazi bütövlüyümüzün bərpasından, bütün milli ali dəyərlərimizdən qoparmaq istəyib, amma buna nail ola bilməyib. Bəzi qopmaları nəzərə almasaq, Azərbaycan ailəsi öz monolitliyini qoruyub saxlayır. Hətta bəzi ekspertlər bildirirlər ki, müəyyən telekanallarda, eləcə də bəzi layihələrdə Azərbaycan ailə modelinin yanlış təqdim edilməsi məsələsində bu kimi qurumlar da maraqlı olub. Onlar bir qayda olaraq Azərbaycan qadınını "əzilmiş, hüququnu bilməyən, təhsilsiz" qələmə verməyə çalışıblar, halbuki Azərbaycan qadını bu deyilənlərin heç birinə sahib deyil. Azərbaycan qadını güclü, ailə sevər, işgüzar, vətənpərvərdir, o gözəl övladlar tərbiyə edən anadır. Yəni Azərbaycan ailəsinə USAİD kimi üzqarası təşkilatların hansısa cəhdləri puç və mənasızdır.

### USAİD Azərbaycan ailəsinin inkişafında məgər maraqlı idi ki?

USAİD-in Azərbaycan ailəsi ilə bağlı "layihələri"nə baxdıqca təəccüblənməyə bilmirsən. Öz-özünə sual verirsən ki, ermənipərəst təşkilat Azərbaycan ailəsinin inkişafını nə yaxşı bu qədər istəyirmiş. Əslində də, məqsəd fərqli dəyərləri, nəsnələri ailə dəyərlərimizə pərçimləmək olub.

Ötən illərin statisikasına baxamda görürük ki, bu qurum bəzi layihələri maliyyələşdirib də.

2010-cu ildə USAİD-ın maliyyələşdirdiyi layihələrdən biri Azərbaycan Reproduktiv Sağlamlıq və Ailə Planlaşdırılması layihəsi çərçivəsində hazırlanmış "Reproduktiv Sağlamlıq və Ailə Planlaşdırılması" adlı tədris vəsaitini çap edilməsi, eləcə də təqdimatı olub. Sözügedən dərs vəsaiti tələbələrin ailə planlaşdırılması mövzusunda, o cümlədən müasir kontraseptiv üsullar, infeksiyanın profilaktikası və gender məsələləri üzrə biliklərini artırmaq məqsədilə tərtib edildiyi qeyd edilirdi. Həmin dövrdə Amerikanın Azərbaycandakı müvəqqəti işlər vəkili olan Adam Sterlinq bildirirdi ki, "yeni dərs vəsaiti ailə planlaşdırılmasının yaxşılaşdırılmasına kömək edəcək".

2010-cu ilin sentyabr ayında yayılan məluamtda deyilirdi ki, USAİD Azərbaycanda ailə planlaşdırılmasına 11 milyon dollar xərcləyib. Araşdırmamız nəticəsində məlum oldu ki, bu 11 milyon ABŞ dolları 2004-cü ildən 2010-cı il arası xərclənib. Bu dövr də USAİD-in ölkəmizdə aktiv dövrü idi və fəaliyyətini gen-bol şəkildə həyata keçirirdi. 6 il ərzində bu qədər vəsait xərclənmişdisə, görün sonrakı dövrlər də bu qurum nə qədər vəsait xərcləyib ki, öz çirkin məqsədini həyata keçirsin. Guya onları Azərbaycandakı boşanmalar, gender bərabərliyi sahəsində olan "problemlər" ciddi narahat edir. Halbuki, bunun onlara heç bir aidiyyatı yoxdur, Azərbaycan dövləti özü-öz ailə instutunun qeydinə qala bilir. USAİD kimi qurumlar bu qədər vəsaiti nafilə xərcləyib, çünki istədiklərinə nail ola bilməyiblər, Azərbaycanda ailə planlaşdırılması öz qanunlarımız çərçivəsində həyata keçirilir...

*İradə SARIYEVA*

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.*